**RUŞAN RUŞANZADƏ**
*AMEA-nın fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun Politologiya və Siyasi Sosiologiya şöbəsinin əyani aspirantı*

# SİYASİ MARAQ VƏ ONUN STRUKTURU

## 1.1.Siyasət və siyasi maraq məsələsinə dair

Cəmiyyətin ictimai həyatının formalaşdığı bir dövrdən müxtəlif şüur səviyyələrində və müxtəlif adlarda meydana gələn siyasi maraq qrupların, xalqların, millətlərin birgə yaşayış tərzini nizamlayan bir mürəkkəb fenomen olmuşdur. Siyasi maraq öncə dövlət anlayışı ilə şərtlənən bir hadisədir. Dövlət bütün siniflərin siyasi idarəedilməsi məkanı olduğundan, siyasi maraqlar da dövlət sferası daxilində öz prinsiplərini irəli sürür. Siyasi maraqların mahiyyətini açıqlamadan öncə siyasət anlayışının açıqlanması gərəkdir.

Subyektiv və obyektiv xassələrilə insan faktorunun mənəvi istehsalı olan siyasət, cəmiyyətin müxtəlif təbəqələri arasında sosial münasibətlər zəmnində sosial qruplar formalaşdıran və onları müxtəlif subyektiv mənafelərlə qarşılıqlı şəkildə birləşdirən bir idarəetmə elmidir.

Siyasət yunan dilindəki "polis" sözündən götürülüb şəhərlə, dövlətlə, vətəndaşla əlaqəsi olan, "dövlətin idarə edilməsi məharəti" mənasını ifadə edir. "Politike" termini Aristotelin dövlət idarəetmə və hökumət haqqında politika adlandırdığı traktatın təsiri altında yayılmışdır.

Siyasət ərəb sözü olub «səyetmələr», davamlı və ardıcıl olaraq «çalışmaq» kimi mənalar ifadə edir.Siyasət, ictimai həyat sahəsi, sosial subyektlərin fəallığının bir növü, sosial münasibətlərin bir tipi kimi qarşılıqlı əlaqədə olan aspektlərin vəhdətində çıxış edir. İlkin aspekt Aristoteldən cəmiyyətin strukturunda özünün mövqeyini hazırlayan və orada rol oynayan element kimi meydana çıxır. İctimai həytatın muxtar sahəsi kimi siyasətdə ümumi və şəxsi maraqların uyğunlaşdırılması hakimiyyətin həyata keçirilməsi və qayda-qanunun saxlanılması ümuməhəmiyyətli maraqların reallaşdırılması, insanlara rəhbərlik, resursların tənzimlənməsi və ictimai işlərin idarə olunması funksiyaları təsbit edilir.

Siyasət fenomeninin analizi üçün bəzi alimlər ingilis dilində istifadə edilən **politiy, poliçiy, politiçs** kateqoriyalarını müəyyənləşdirməklə daha münasib adekvat anlayışlar işlədirlər.

1.**Politiy** anlayışı siyasətin konstitusiya ilə, hüquqla, ənənələrlə, parlamentlər, hökumətlər, məhkəmələr və s. formasında müəyyən olunmuş institusional ölçüsü ifadə olunur.

**2.Poliçiy** anlayışı siyasətin siyasi tələbatlar və maraqlar, siyasi dəyərlər, məqsədlər, siyasi proqram və doktirinalar kimi normativ əsasları ilə bağlıdır.

**3.Politiçs** anlayışı siyasətçinin prosessual şərhini nəzərdə tutur ki,bu zaman intelektual, qiymətverici və sosial psixoloji formaları olan siyasi iradə ifadə etmək nəzərdə tutulur.

Siyasətin, əsasında, bu yöndə olan bütün münasibətlərin özülündə maraqlar dayanır. Ümumiyyətlə, ictimai mühitin formalaşması, sübyektiv mənafelərin bərpasına doğru cəhd etmələrin nəticəsi olduğu kimi siyasətin də meydana gəlməsini zərurətlər doğurur. Siyasət hadisələrin,qurum və quruluşların son dərəcə mürəkkəb sistemini canlandırır.

Siyasət cəmiyyətin təşlkiledici, tənzimləyici nəzarətedici, sahəsidir. Aristotel

siyasət sözünü vətəndaşlarının birgə yaşayış forması kimi, dövləti adlandıraraq işlətmişdir. XIX əsrədək siyasət ənənəvi olaraq qurulmuş hakimiyyət və dövlət kimi anlaşılmışdır. Müasir dövrdə isə, siyasi düşüncə dövlət idarəetmə haqqında yeni elmi nəzəriyyələrin yaranması, siyasətin fəlsəfədən və digər elmlərdən ayrılaraq müstəqilləşməsi ilə nəticələnmiş, siyasi düşüncənin genişlənməsi, zənginləşməsi onun mürəkkəbləşməsinə, çoxşaxəli olmasına səbəb olmuşdur.

Tarixən siyasət haqqında fikir yürüdənlərin bir hissəsi siyasəti elm, digər bir hissəsi isə onu sənət kimi izah etmişlər. Bir çox nümayəndələr ideoloji yanaşma ilə siyasətin sənət xüsusiyyətlərini göstərmiş, onu dəyişikliyə malik olan bir fəaliyyət hesab etmişlər. Bunlardan orta əsrlərdə "Siyasətnamə"nin müəllifi Nizamilmülkü (1018-1092) və müasir dövr nümayəndələrindən Manheyn Karlın adını qeyd etmək olar.

Qərarlaşmasından, dayanıqlığından, informasiya kütləsinin qiymətləndirilməsindən və siyasi fəaliyyətdə istifadə edilməsindən asılı olaraq siyasət yaranışı, inkişafı və qanunauyğunluğu ilə elmi status qazanmışdır. Bu dövlətçilik tarixi və təcrübəsi, yaxud da demokratik prinsipləri etibarlı olan ölkələrdə daha çox müşahidə ediləndir.

Siyasət insan cəmiyyətinin şüuru, psixikası, dünya görüşü, ideal və arzuları, mədəniyyəti, əxlaqı və s. mövcudluğu ilə ilgili bir hadisə olmaqla mənsub olduğu dövlət tipindən asılı olaraq cəmiyyətin gündəlik həyatını və gələcək taleyini müəyyənləşdirən bir fenomendir.

XX əsrdə siyasət haqqında əsaslı konsepsiya yaradıcılarından K.Şmitin və J.Frendin adını qeyd etmək olar. Bu tədqiqatçılar ziddiyyətliyi, mürəkkəbliliyi, universiallığı və kompleksliyilə yanaşı onun sosial fenomen olduğunu da göstərmişlər. Fransız politoloqları M.Diverrin və F.Brod siyasətin bütün ictimai sahələrdə ziddiyyətli və münaqişəli bir fonomen olduğunu yazırlar. Müasir politologiya elmi siyasi problemlərin şərhində siyasət anlayışının siyasi idarəetmə funksiyasını nəzərə alaraq, onu cəmiyyətin elmi əsaslarla idarə olunması elmi adlandırır. Başqa bir tərəfdən hakimiyyət, dövlət və cəmiyyət münasibətlərinin tənzimlənməsi kimi qiymətləndirilir. Bir çox tədqiqatçılar siyasəti hüquqla əlaqələndirir və ya demoqrafik potensialın yüksəldilməsi, istiqamətləndirilməsi yaxud da onu ümumi sosial rifahların fəallığında rol oynayan vasitə hesab edirlər. Bununla yanaşı əks mövqedən çıxış edən və yuxarıda göstərilənlərlə razılaşmayanlar da vardır. Bunlardan Cəmaləddin Hacıyevin tədqiqatlarını göstərmək olar. Totalitar sistemlərdən fərqli olaraq, demokratik sistemlərdə siyasətin predmeti insanların, vətəndaşların, siniflərin, sosial təşkilatların, siyasi partiyaların, geniş mənada isə dövlətin fəaliyyətini və hakimiyyətini təşkil etməkdən ibarətdir. Eyni zamanda siyasət təkcə ümumi rifahların təmini və ifadəsi yox, həm də xüsusi, maraqların aparıcısı və onları həyata keçirən qüvvəsidir. Bu baxımdan demokratik cəmiyyətlərdə siyasət «siyasi maraq» kimi də nəzərə çarpacaq dərəcədə zəruriləşir. Siyasət sosial sistemdə universallığı, geniş əhatə dairəsilə malikliyi ilə cəmiyyətin bütün tələblərinə, mənəvi-mədəni durumuna praktiki olaraq təsir göstərir. Digər səciyyəvi xüsusiyyət, siyasətin sistemə olduğu kimi onun yarımsistemlərinə də, xüsusilə, iqtisadi, ideoloji, əxlaqi nüfuz etməsidir (21, 94).

Siyasət obyektiv bir sistem olmaqla dövlətin, dövlətin təsisatlarının, hakimiyyət və hakimiyyət münasibətlərinin müxtəlif səviyyələrinin, bütövlükdə isə idarəetmənin ən ali məram prinsipidir.

E.B.Şestopalin yazır: «Siyasət haqqında danışarkən biz hər şeydən əvvəl dövləti siyasi təsisatlar sistemi kimi xatırlayırıq. Bu sistemə prezident və parla-

ment, ordu və təhlükəsizlik, daxili və xarici işlər nazirlikləri, maliyyə və sosial təminat daxildir» (22, 225).

Hələ qədimlərdən siyasət fenomeni müxtəlif yanaşma tərzli mütəfəkkirlərin diqqətində dayanmış, onların hər biri siyasəti müxtəlif formada təhlil etməyə çalışmışdır. Sokratın siyasi görüşləri öz zirvəsinə Afina tarixinin keçid dövründə, Perkil demokratiyasından, yüksəliş illərindən sonra «enmə mərhələsini yaşayan» Afinada hakimiyyətə gələn fərsizlər, tiranlar, oliqarxlar, xəzinə oğruları, fırıldaqçılar fəaliyyətdə olduğu zaman çatmışdır. Onun fəlsəfi siyasi fikirləri, əxlaqi və intellektual imperativləri bu qəbildən olan insanları – məmurları qıcıqlandırsa da sosial sistemin dağılmasının, çürüməsinin qarşısını ala bilməzdi: köhnə hələ kifayət qədər güclü, yeni isə toran halda idi.

Məşhur tarixçi Plutarx Sokratın siyasi fəlsəfi düşüncələrini və fəaliyyətinin cövhərini qısa bir cümlə ilə çox gözəl ifadə etmişdir: "Sokrat ilk dəfə göstərmişdir ki, hər yaşda başımıza nələrin gəlməsindən, nə etməyimizdən asılı olmayaraq – həyatda hər zaman fəlsəfəyə və siyasi şura önəmli yer vardır" (23, 20).

Platonun siyasəti insanları qanun əsasında idarəetmək, bilik və bacarıq, yüksək idarəçilik keyfiyyətləri tələb edən sənət hesab etmişdir.

Aristotel "Nikomax etikası" əsərində də siyasətə xüsusi diqqət və yer ayırmışdır. O, siyasəti insanların birgə yaşayışını idarə edən və onların rifahını insanların rifahı ilə əlaqələndirərək dövlətdə, cəmiyyətdə və fərdi münasibətlərdə, yüksək harmoniyanı yaradan elm adlandırmışdır. Digər tərəfdən Aristotel siyasətin etika ilə ciddi bağlılığını qeyd etmiş və etikanı siyasətin əsası hesab etmişdir.

Makiavelli siyasəti insanın rasional fəaliyyətinin avtonom sahəsi kimi izah etmişdir. Onun görüşünə görə siyasətdə təbii səbəblər, subyektiv və obyektiv faydalı qaydalar, hadisələrin axarını öncədən görmək və ən optimal qərarar qəbul etmək, siyasətçinin öz imkanlarını müəyyənləşdirən ən yaxşı vasitələrdəndir. Obyektiv yanaşma tərzi ilə desək Makiavellinin siyasi görüşləri, etik normalar hüdudu ilə hesablaşmayan bir çox yeni görünən nəzərlər kimi də diqqətə çarpır. Belə ki, onun təsəvvüründə siyasətin ali məqsədi və əsas problemi zamanın xarakterinə və qərar qəbul olunan məqama və şəraitə uyğun fəaliyyət obrazını tapmaqdan ibarətdir. O, siyasətin təkcə ümumi sərəncamların mənimsənilməsi ilə bitmədiyini göstərmiş, onu empirik elm kimi də əsaslandırmışdır.

Siyasi fəaliyyətin, mahiyyətinin müəyyənləşdirilməsinə müxtəlif nəzəri baxışlar mövcuddur. Bir baxışa görə, siyasət siyasi fəaliyyətdə olanların subyektiv iradəsini ifadə edən və onların bütün fəaliyyətləri ilə ümumsistemə təsir göstərən toqquşmalardan ibarətdir. Digər mövqeyə görə, siyasət idarəetməni, qayda-qanunu, ədaləti həyata keçirmək dinamik şəkildə qarşılıqlı əlaqə daşıyan hadisələrlə subyektiv maraqların uzlaşdırıldığı və onu obyektiv qarşılıqlı fəaliyyətlə əvəz etmə prosesidir.

Fransız politoloqları M.Dyuverje və F. Brod siyasət haqqında maraqlı fikirlər söyləmişdir. M.Dyuvercenin fikrinə görə siyasət dövlətin, bütün sistemi və yarımsistemlərinin işlərini idarə edən hakimiyyətin yaradılmasını, onun fəaliyyəti üzərindəki nəzarəti həyata keçirən şəxslərin dəyişdirilməsi imkanlarını müəyyən edən fəaliyyət və təsisatlardan ibarətdir.

F.Brod isə siyasi aktorları fəaliyyətdə olan nümayəndələri dörd yerə ayırır.

I. Siyasi partiyalar və idarə edənlər,

II. Dövlət idarələri,

III. Təzyiq qrupları,

IV. Bütövlükdə xallq və ya onun müəyyən qismi.

Alman politoloqları Karl Şmittin siyasi konsepsiyasına görə, siyasət "siyasət aləmini" dərk etməyə istiqamətlənən müstəqil və orijinal vasitədir. F.Nitsşe siyasəti mədəniyyətin xidmətində olan alət hesab edib, mədəniyyəti isə kosmik miqyaslı güc və iradənin mübarizəsi kimi izah edir. Bir çoxu isə siyasəti sosial qrupların maraqları ilə əlaqələndirir, siyasi hakimiyyətin ələ alınması, saxlanması və istifadə olunmasını yönlənmiş fəaliyyətlərin nəticəsidir. Belə nümayəndələrdən A.Bentlinin, D.Turmenin, M.Veberin adlarını qeyd etmək olar.

Siyasəti sosial fəaliyyətin bir növü kimi qiymətləndirən nümayəndələr də vardır. Bunlardan ingilis alimləri C.Panton və P.Killi kimi şəxsləri göstərmək olar. Onların fikrinə görə siyasət məhdud olan maddi-mənəvi sərvətlərin bölgüsünü, ictimai işlərdəki münasibətlərin aydınlaşdırılmasını, qaydaya salan, hər şeydən əvvəl insanların müxtəlif mühitlərdə, müxtəlif formada görünən və daima dəyişməklə sosial və maddi qarşılıqlı münasibətləri nizamlayan ictimai fəaliyyətdir.

Q.Şubert, B.Latur və S.Ştrum kimi müəlliflərə görə, siyasi fəaliyyət mədəniyyətdən əvvəl və qədimdir, siyasətin meydana gəlməsi psixologiya antropologiya və etologiya və s. bu kimi elmi metodlarla tədqiq edilə bilər. Onlar siyasi anlayışları, sosial anlayışlarla eyni mahiyyətli hesab edirlər.

Siyasətin məzmununu müəyyənləşdirən üsullardan biri də hakimiyyət və hakimiyyətdən istifadə etməklə ictimai məqsədlərin reallaşdırılmasıdır. Həmçinin hakimiyyət vasitəsilə sosial qrupların mənafeyinin həyata keçirilməsi və mühafizə edilməsi sistemidir.

Müasir politologiyanın görkəmli nümayəndələri N.Lassuel və A.Kaplanın nəzərində siyasət hakimiyyətin formalaşdırılması, bölüşdürülməsi və hakimiyyət vasitəsilə maraqların həyata keçirilməsidir.

Siyasət sosial subyektlərin obyektiv sferada maraqlarının və mənafelərinin hakimiyyət vasitəsilə təmin edilməsidir.

Bir çox tədqiqatçılar siyasəti maraqla, mənafe ilə izah edirlər. Onlar insanların birgə tələblərinin, bu zəmində formalaşan ictimai mənafe və maraqlarını müntəzəm şəkildə təmin edən əhəmiyyətli xidmət sistemini önə çəkirlər.

Bu deyilənlərlə dolayı, siyasət haqqında elə bir anlayış formalaşdırılmalıdır ki, istər siyasəti nəzəri bilən politoloqun, istərsə də, təcrübi fəaliyyətdə olan siyasətçinin daim yararlana biləcəyi baza olsun. Bu yalnız siyasətin elmi əsaslarla izah edilməsi ilə mümkün ola bilər. Siyasətə aid nəzər müxtəlif səviyyələrdə uzlaşdırılması və vahidlik prinsipi yalnız dövlət anlayışı əsasında mümkündür. Siyasətin mahiyyəti açıqlanarkən, siyasi hadisələrin mərkəzində dövlətin durduğunu görürük. Dövlət siyasi hadisələrin və siyasi prosseslərin mərkəzində duran və hakimiyyətlə hakimiyyətin idarəsi altında olan xalqın qarşılıqlı harmoniyada olduğu mərkəzləşmiş strukturdur.

Siyasət anlayışı dövləti, hüququ, partiyaları, qərarların qəbul edilmə mexanizmini, seçkilər sferalarını, sosial-siyasi münasibətləri, siyasi mədəniyyəti və s. bu kimi sahələri əhatə edir. Siyasətin mahiyyəti araşdırıldıqda bir tərəfdən müəyyən siyasi qrupun, siyasi prossesdəki mənafeyi, digər tərəfdən bu siyasi prossesin konkret forması və ictimai amillərin obyektivliyi zəruriəti meydana çıxır. Beləliklə də, konkret bir qrupun seçilmiş nümayəndəsi öz təsəvvüründə ictimai quruluşun müəyyən obrazını yaradır və bütün fəaliyyətini zehnində hazırladığı obraza hesablayır, həsr edir. Lakin digər tərəfdən, obyektiv reallıqlar, siyasi reallıq formasında qarşılandıqca siyasi prossesin iştirakçısı həmin reallıqla hesablaşmalı və ona əsasən beynində yaratdığı obrazı və eyni zamanda ona nail olmağın yolla-

rını, vasitələrini dəqiqləşdirilir. Bu məqsədlə də o, müəyyən partiyalar və hərəkatlara qoşulur, yaxud da fərdi fəaliyyət göstərir. Fərdi və ya kollektiv fəaliyyət göstərməsindən asılı olmayaraq siyasi münasibətlərə daxil olan şəxsin fəaliyyəti həmişə ictimai qrup xarakteri daşıyır. Beləliklə də siyasətin müxtəlif (iqtisadi, mədəni, sosial, əxlaqi) tərəfləri nəzərə alınmaqla, siyasi fəaliyyətdə olan şəxsin simasında siyasi maraqlar anlayışı meydana gəlir.

**1.2.Siyasi maraq və siyasi sistemin təşkili**

Siyasi maraqların strukturunda, məzmun və proses (münasibətlər) ayrı-ayrı hadisələrdir. Siaysi marağın forması ona davamlılıq, sabitlik verən insanların siyasi davranışını tənzimləməyə imkan verən onun təşkilati strukturu, institutları (dövlət, partiyalar və s.), həmçinin normalar və qanunlardır.

Siyasi marağın məzmunu isə onun məqsədləri və dəyərlərində, həll edilməli qərarların qəbul edilməsi motivlərində və mexanizmlərində, problemlərində ifadə olunur.

Siyasi marağın prosesi siyasi fəaliyyətin mürəkkəb, çox subyektli və münaqişəli xarakteri, onun müxtəlif sosial qrupların, təşkilatlar və fərdlərin münasibətləri kimi mövcuddur.

Siyasi marağın həyata keçirilməsi bir neçə müxtəlif səviyyələrdə mövcud ola bilər.

1.Aşağı səviyyədə-yerli problemlərin, mənzil şəraiti, məktəb, universitet, ictimai nəqliyyat və s. Kimi amillərin təmin olunması. Siyasi maraq bu səviyyədə əsasən ayrı-ayrı fərdlər tərəfindəb həyata keçirilir.

2.Lokal səviyyədə-dövlətin müdaxiləsini tələb edən şəraitdə faha fəal surətdə siyasət regionun iqtisadi inkişafında maraqlı olan qruplar və asososialar tərəfindən həyata keçirilir.

3.Milli səviyyədə siyasi maraqlar mərkəzi yer tutur. Bu da dövlətin resusrslarının bölüşdürülməsində əsas institut kimi tutduğu yeri ilə müəyyən olunur.Milli səviyyə siyasi maraqların tam inkişaf forması kimi hadisələrin təhlilini optimallaşdırır.

4. Beynəlxalq səviyyə-siyasi maraqların əsas fəaliyyət subyekti kimi dövlətlərin münasibəti onların çıxış etdiyi qlobal proseslərdir.

**Sistem anlayışı.** Sistem anlayışının izahı üçün öncə çoxluq anlayışına diqqət yetirilməlidir. Çoxluq dedikdə birdən artıq bir neçə əşyanın, predmetin, obyektin, eyni zamanda, eyni mövqeydən nəzərdən keçirilməsi başa düşülür.

Sistem yunan sözü olmaqla təşkil olunmuş komponentləri arasında münasibətlərin nizamlanmış müəyyən bir bütöv mənasını ifadə edir. Sistem anlayışı ilk dəfə VII əsrin əvvəllərində işlənmişdir. Elmi tədqiqatlar göstərir ki, sistem termini ilk dəfə 1600-cü ildə B.Kopermanın "Məntiqin sistemi" kitabında işlənmişdir.

Sistem anlayışının VII əsrdən etibarən elmi dövriyəyə intensiv işlənməsi baş vermişdir.Bu anlayış Q.Qalileyin, İ.Nyutonun, P.Laplasın, P.Holbaxın, Dekartın, Spinozanın əsərlərində məşhurlaşmışdır. "Sistem" dedikdə ümumi mənada elementlərin obyektlərin qarşılıqlı əlaqədə yeni xüsusiyyətli bir obyekt əmələ gətirməsi başa düşülür.Sistem elementləri arasında əlaqə olan çoxluğun əmələ gətirdiyi yeni bir xassəyə xüsusiyyətə malik olan yeni bir obyektdir.

**Siyasi sistem.** Müasir siyasi elmi metodologiyaya təsir göstərəjək bir yeniliklə ilk dəfə D.İston «siyasi sistem» anlayışını irəli sürmüş, obyektiv siyasəti qanunauyğun bir sistem kimi başa düşmüş, onu elm olaraq qiymətləndirmişdirBundan başlayaraq müxtəlif cəmiyyətlərin siyasi sistemləri, onların müqayisəli şəkildə

analizi prosesi başlamışdır (24, 91). Siyasətə sistemli yanaşanlardan M.Veber yazır: «Empirik elm heç kimə nə etməli olduğunu öyrədə bilməz, o, insana ancaq məlum şərtlər çərçivəsində həyata keçirmək istədiyi yöndə nə edə biləcəyini göstərir» (25, 350).

Mövcud cəmiyyət üçün nüfuzlu hakimiyyət qərarını qəbul edən və həyata keçirilən sabit insani münasibətlər forması olan siyasi sistem cəmiyyətin digər sistemlərindən bir neçə xarakteristikası ilə fərqlənir.

1.Mövcud cəmiyyətdə,onun bütün üzvlərinə göstərdiyi təsir dairəsinə görə universal bir sistemdir.

2.Fiziki məcburiyətin tətbiqi üzərindəki nəzarət iddiası ona məxsusdur.

3. Onun hamı üçün (bütün sistemlər üçün) məcburi olan qərarlar çıxarması hüquqi legitin hesab olunur. O qərarlar ki, özündə legitinlik daşfuzlu hakimiyyətin qərarlarıdır və hakimiyyətin əsas mənbəsi olan xalqın, vətəndaşların qərarı ilə müəyyənləşir və ona tabe olur.

Siyasi sistem dövləti, dövlətin alt sistemlərini və orada baş verən siyasi proseslərin idarə olunmasını əhatə edən münasibətlər məcmusunu bildirən hadisə kimi də işlədilən bir anlayışdır.

Bütün siyasi münasibət və fəaliyyətlər siyasi maraqlara əsaslanır və onu əks etdirir. Siyasi maraqlar sosial mühitdə müxtəlif ictimai birləşmələri, qrupları formalaşdıran vasitədir. Bu prinsiplə də siyasi subyekt və obyekt siyasi münasibətləri meydana gətirir və biri digərinin imkanlarına şərait yaradır. Siyasi maraqları rəhbər tutaraq münasibətlər sistemində subyekt ictimai sistemin strukturunda maraqların obyektiv tərəfini müəyyənləşdirir. Subyektin özünü müəyənləşdirməsi siyasi marağın subyektiv hissəsini əmələ gətirir. Başqa sözlə ***siyasi maraq böyük ictimai qrupların fəaliyyətində əldə etməyə çalışdıqları hakimiyyət vasitəsilə imkanlarını obyektiv surətdə dərk etməsidir.*** Siyasətin obyektiv əsası dövlət hakimiyyəti ilə şərtlənir. Subyektiv əsas isə hakimiyyət sabitliyini həm hakim dairənin əhatəsində, yəni dövlət daxilində, həm də onun hüdudları xaricində qorunub saxlanması fəaliyyəti ilə bağlıdır, qısa sözlə, yəni, siyasi maraq, ***siyasi hakimiyyətdəki fəaliyyətin obyektiv imkanlarının subyektiv mənimsənilməsidir.***

Siyasi maraqlar ayrı-ayrı fərdi və ictimai maraqlardan əsaslı surətdə fərqlidir. İctimai maraqlar cəmiyyətdaxili münasibətlərin intizamını müəyyənləşdirirsə siyasi maraqlar siyasi hakimiyyətlə dövlət müqəddəratını həll edir. Siyasi maraqların təmsilolunma şəraiti müxtəlif səviyyələrdə həyata keçirilir. İctimai təşkilat, partiya, dövlət. Həmdə müxtəlif dövlət quruluşu tiplərinin siyasi maraqların həyata keçirilməsinə özünəməxsus təsiri vardır. Məsələn: Totalitar tipli dövlət quruluşunda, demokratik prinsipli maraqların həyata keçirilməsi mümkün deyil.

Siyasi maraqların məzmunu dövlət və cəmiyyət, hakimiyyət və xalq, siniflər, qruplar arasındakı münasibətlərlə müəyyənləşir. ***Qarşılıqlı anlaşmaya əsasalanan münasibətlər, siyasi maraqların strukturu kimi səciyyələnir.*** Qarşılıqlı anlaşma və razılıq əsasında, xalq tərəfindən dövlətə hüquq verilməsi T.Hobbs tərəfindən irəli sürülmüşdür. Bundan sonra J.J.Russo ictimai müqavilə, "Siyasi hüququn prisipləri" adlı əsərində müəyyən fikirlər açıqlamışdır. Obyektin siyasi maraqlarını həyata keçirən elita yaxud qrup arasında vəzifələrin və əmək fəaliyyətlərinin bölüşdürülməsi, siyasi maraqların əhəmiyyətli tərəflərindəndir. Fəaliyyətlər nəticəsində meydana çıxan bütün münasibətlərin əsasında siyasi fəallığın bazasının formalaşması, genişləndirilməsi siyasi kursun gələcək perspektivlərinin zənginləşməsi və s. dayanır. Belə ki, atılan hər bir siyasi addımın birinin digərinə yaratdığı şərait növbəti imkanların genişlənməsinə xidmət edir, elə buradan da dinamiklik və sis-

temlik anlayışı yaranır.

***Siyasi maraqlar siyasi reallıq faktını yaradır, siyasi həyatın yarımsistemlərini formalaşdırır.***

Siyasi maraqlar bir neçə əsas mərhələdən keçir: Cəmiyyətlə praktik əlaqələrdə subyektin vəziyyəti, bu vəziyyətin subyekt tərəfindən dərk edilməsi səviyyəsi, davranış və fəaliyyət motivləri, obyektiv aləmdə maraqların təsdiq olunması prosesindən ibarət hərəkətin özü, mənafenin təsisatlandırılması və s.(26, 79-80).

Zaman etibarı ilə sabit xarakterli siyasi maraqların bəzən məkan etibarı ilə dəyişikliyi labüdləşir. Belə ki, siyasi obyektin maraqlarının gözlənilən səviyyədə reallaşdırılması. digər yeni bir siyasi qüvvənin hakimiyyətə gəlməsinə şərait yaratmış olur. Məzmununa və xarakterinə görə müxtəlif tipli quruluşlara, yəni demokratik və başqa prinsiplərə əsaslanan dövlət, siyasi fəaliyyətdən asılı olaraq müxtəlif siyasi maraqlı hakim qrupların birinin digəri ilə əvəzlənməsi məkanına çevrilə bilir. Belə ki, hər bir cəmiyyətdə insan müxtariyyatı, hüquq toxunulmazlığı və onun ləyaqəti, fərdin və cəmiyyətin rifahı, sosial təşkilat və nizamlı qayda kimi siyasi dəyərlər sistemi olur. Bu siyasi dəyər və sərvətlər, daxili və xarici siyasətdə, qərarların qəbul edilməsində, siyasi və əxlaqi qiymətləndirmənin başlıca meyarı kimi çıxış edir. Çoxtərəfli münasibətləri yaxınlaşdıran siyasi maraq münasibətlər nəticəsində bəzən diferensasiyanı yaradır. Bu halda hakim qüvvələr və müxalifət, siyasi qüvvələrin məjmuu yaxud siyasətin subyektləri maraqların tərəfinə çevrilir, və sağlar, sollar və mərkəzlər mövqeyində dayanırlar. Bunlar parlamentdə, partiyalararası və partiyadaxili münasibətdə aşkarlanır. Maraqlar məqsədyönlü xarakter daşıdığından mövqelər arasındakı ziddiyyətlərin həll edilməsində münasibətlərin balanslaşdırılması və ədalətli surətdə tənzimlənməsi tərəflərin bərabərliyi prinsipi əsasında həyata keçirilə bilər. Elə buradan da hüquqi dövlət anlayışı meydana gəlir.

Siyasi maraq siyasi münasibətlərdə ən dəyərli komponentdir. İctimai həyatın nisbi müstəqilliyə malik olan sahəsi kimi çıxış edən siyasi maraqlar öz mahiyyətilə sosial, iqtisadi maraqların təmərküzləşmiş formasıdır. Onun mahiyyəti ayrı-ayrı sosial qrupların və tələblərin ümumiləşmiş ifadəsidir. Siyasi maraq, sosial qrupların, geniş mənada əhalinin, xalqın müxtəlif səviyyələrdə, müəyyən siyasi əsaslar vasitəsilə reallaşan, dərkedilmiş və qəbulolunmuş mənafeyidir. Mənafe sosial qrupların siyasət mühitindəki fəaliyyətinin bu və ya digər dərəcədə olan dəyişməz istiqamətini bildirməklə hakimiyyətə, dövlətə, sərvətlərə bağlılıq ifadə edir. Digər bir tərəfdən siyasi maraq subyektin mövcud sosial sistemdəki yeri və fəaliyyəti ilə müəyyənləşir. Həmişə ümumi xarakterli olan siyasi maraq ümumi fərdi və ya qrup mənafe xarakterlərinə malik olsa da qrupların mənafelərini təzahür etməyə hesablanır. Bu kontekstdə demək olar ki, ***demokratik dövlət sistemində seçki hüququna malik adi vətəndaşlardan ali siyasi liderədək hər kəs ümumi maraqların əhatəsində birləşir. Fərdi və qrup mənafelərində təzahür olunan ümumi siyasi maraqlar qarşıya qoyulan hər hansı siyasi mövqeyin və fəaliyyətin qaynağıdır.*** Palmirston siyasi fəaliyyətdə maraqların əhəmiyyətini aşağıdakı kimi ifadə etmişdir. "Bizim əbədi rəqiblərimiz və düşmənlərimiz yoxdur. Bizim üçün yalnız mənafe, maraq əbədidir. Siyasi fəaliyyət mürəkkəb və çoxsahəli prosesdir. Həmin prosesi mənalandıran amillərdən biri məhz, müxtəlif mənafelər ümumiləşdirməkdən və bu zəmində elə fəaliyyət xətti işləyib hazırlamaqdan ibarətdir ki, o hamı tərəfindən qəbul edilsin. Heç də təsadüfi deyildir ki, siyasi elmə dair ədəbiyyatda, siyasi maraq daim fəaliyyətdə olan başlıca və ümumi mənafe kimi qiymətləndirilir" (27, 136-144).

Qarşılıqlı fəaliyyətlərin məkanı kimi mövcud olan siyasi mühit fəaliyyətlərin təşkilinin spesifik formasına ehtiyaclıdır. Düzgün tənzimlənən fəaliyyətlər forması, siyasi təsisatlar kimi anlaşılır. Siyasi təsisatların başlıca mahiyyətini dövlət, onun orqanları və müəssisələri, o cümlədən partiyalar və qeyri hökmət təşkilatları təşkil edir. Siyasi maraqların həyata keçirilməsi siyasi təsisatların təşkil keyfiyyətilə şərtlənir. Burada təşkil keyftiyyətlərilə yanaşı idarəetmə funksiyalarının intellektual potensialı da önəmli rola malikdir.

***Siyasi münasibətlər, mənafelər və təsisatlar siyasi dəyərlərə nüfuz edir, siyasi həyatın bütün tərəflərini möhkəmləndirir, onun sistemliyini təmin edir.*** **Bununla da sistem təşkil olunur və fəaliyyət göstərir.** ***Siyasi sərvətlər və dəyərlər mühitində insan azadlığı, sosial ictimai ədalət, vətəndaşlıq şüuru, həmrəylik, birgəyaşayış mədəniyyətindən nəticələnən ümumidarəyə inam və s. kimi dəyərlərin obyektiv və subyektiv tərəfləri mövcuddur***. Obyektiv tərəfi böyük sosial qrupların ümumi həyat tələbləri və uzunmüddətli marağı, subyektiv tərəfi isə dövlət hakimiyyəti ilə əlaqədar olan tələbatlar və mənafelər təşkil edir. Siyasi maraqlar prizmasından baxdıqda sərvətləri obyektivləşdirən vasitələrdən ən dayanıqlısı, siyasi mədəniyyətin əlaqələndiricilərindən, ünsürlərindən biri olan siyasi simvollardır. Burada ən zəngin fundamental, simvolik fenomen dildir. O.Şpenqler də qeyd etmişdir ki, hər bir mədəniyyətin birliyi onun simvollarının ümumi əsasıdır. Siyasi müstəvidə məqsədi və təlabatı maraqlarla eyni tərzdə qiymətləndirmək olmaz. Belə ki, məqsəd insanların fəaliyyətinin nəticəsi, tələbat isə maraqları doğuran səbəbdir. Marağın mövcudluğu subyektin onu dərk edib etməməsindən asılı olmayaraq, fəaliyyətdə olan subyektin həyatının xarakterini, istiqamətini müəyyən edən və nizamlayan, hərəkətə gətirən qüvvə olaraq öz təbiət etibarı ilə obyektiv xarakterə malikdir. Qrupların, cəmiyyətlərin və dövlətin həyatından maraqların əhəmiyyətini yüksək qiymətləndirən Hegel yazır: "Taxirə yaxından nəzər salmaq bizi inandırır ki, insanların fəaliyyəti, onların tələbatlarından, cəhdlərindən və maraqlarından irəli gəlir. Məhz onlar (tələbatlar və maraqlar) mühüm rol oynayırlar (28, 30).

Siyasi sistem hakimiyyətin müxtəlif qollarını, siyasi partiyaları, qanunverici və qanunicraedici orqanlarını, dövlət siyasətinə təsir edən qeyri-hökumət təşkilatlarını və subyektiv maraqların obyektlərini özündə birləşdirir. Dövlət siyasəti dedikdə isə, daha çox dövlət idarəetmə sistemi tərəfindən qəbul edilən qərarlar nəzərdə tutulmalıdır.

Əslində siyasət siyasətçilərin həyata keçirdiklərindən daha geniş bir hadisədir. Siyasət siyasi səhnəyə çıxan bütün maraqların ədalətin nizamlanması və qarşılıqlı razılaşdırılması istiqamətində aparılan, son dərəcə dəqiqlik tələb edən prosesdir. Siyasət özündə təkcə sistem daxilində rəqabət aparan maraqlı qrupların deyil həm də sistemin özünün pozitiv dəyişdirilməsinə, inkişafına isriqamətlənmiş fəaliyyəti birləşdirməlidir. Onun məsuliyyəti təkcə qarşıya qoyulan məqsədlərə nail olmağa çalışmaqdan ibarət deyil, həm də bu məqsədlər uğrunda konstruktiv mübarizələr aparmaq və mövcud siyasi sitemə mümkün alternativlər axtarıb tapmaqdır.

## *ƏDƏBİYYAT*

1. Платон. Государство: Законы. Политик. Н. Москва. изд.-во. «Мысль» 1999. с. 239. 810 с.
2. Политическая наука: новые направления / Пер.с.англ. М.М.Гурбаца, А.Л.Демчука, Г.Б.Якшевой. научный редактор Е.Б.Шестопал – М:, Вече, 1999. с. 225. 316 с.

3. Cəmil Əhmədli. Sokrat və özünüdərk problemi: qısa tarixi ekskurs. Dünyaya Baxış.jur. s. 25. 232 s.
4. Вабер Макс. Избранные произведение: Перс с. пем./Сост., общ.ред.ипосмел. Ю.Н.Давыдова; Предисл. П.П.Тайденко. М.: Прогресс, 1990. 350 с.
5. Politologiya. H.Şirəliyev, Əli Əhmədov. Bakı,Təbib nəşr. 1997. 416 səh.
6. Гегель. Соч. т.8. М., 1935. 415 с.
7. Dünyaya baxış 3, 2008. s. 30. 232 s.
8. Cəmil Əhmədli. Cəmiyyət, siyasət, ideologiya. Bakı. Ulu n. 1997. 192 s.
9. Cəmil Əhmədli. Nəzəriyyə onun tipləri və funksiyaları. Bakı Diplomatya n. 2008. 236 s.
10. Nizamülmülk. Siyasətnamə. Bakı.1989. Bakı. Elm. 204 s.
11. Yadigar Türkel. Politalogiya (açıqlamalarla sözlük və ya milli kinlik dərsləri.) Bakı. 2008. 540 s.
12. Politalogiya. Ensklopedik lüğət. Bakı. 2008. s. 831.
13. Səlahəddin Xəlilov. Fəlsəfədən siyasətə. Bakı, Azərbaycan Universiteti n. 1998. 328səh.
14. Məcid Əfəndiyev. Siyasi Elmin əsasları. Bakı, Siyasət nəşr.2004. 604 səh.
15. Əbülhəsən Abbasov. İdarəetmənin sinigetik fəlsəfəsi. M.B.M n. Poliqrafiya mərkəzi Bakı 2006. 212 səh.
16. Aristotel. Siyasət və Böyük Etika. Bakı. XXI əsr -Yeni nəşrlər evi 2006.432 səh.
17. Əhməd Qəşəmoğlu. Sosial idarəetmənin fəlsəfi sosioloji problemləri. Bakı, Səda nəşr. 2008. 264 səh
18. N.Makyavelli. Hökmdar. Bakı , Qızıl Şərq. 2008.159 səh.
19. Агоскова Е.А, Ахлибинский Б.В.Вопросы философии. 1998-№7. с. 170-179.
20. Гаджиев К.С. Политицеская наука. М., 1995. 410 с.
21. Здравомысльов А.Г.Потребности, интересы, ценности. М., 1986. 250 с.
22. А.Л.Демчука, Т.Б.Якушевой. Научный редактор Е.Б.Шитопал. – М: Бере, 1999. 503с.
23. Антология мировой политический мыслъ: В.2т.т.: Зарубежная политическая мыслъ XX.б.М.: Мыслъ, 1997.

**РУШАН РУШАНЗАДЕ**

**ПОЛИТИЧЕСКИЙ ИНТЕРЕС И ЕГО СТРУКТУРА**

Статья, состоящая из двух подглав, посвящена проблемам политики и политического интереса, а также образованию политической систему. Политический интерес рождает факт политических реалий, формирует полусистемы политической жизни.

**RUSHAN RUSHANZADE**

**POLITICAL INTEREST AND ITS STRUCTURE**

The article consisting of subtitle is dedicated to the problems of politics and political interest and as well to the formation of political system.

***Rəyçilər: fəl.e.d.Ə.M.Tağıyev, f.e.d.N.M.Mikayılov.***

***AMEA-nın Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun «Politologiya və siyasi sosiologiya» şöbəsinin 19 mart 2010-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №10).***